**Meliorasiya və irriqasiya haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun meliorasiya və irriqasiya sahəsində fəaliyyətin hüquqi əsaslarını müəyyən edir.

I fəsil
**ÜMUMİ MÜDDƏALAR**

Maddə 1. **Əsas anlayışlar**

Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakılardır:
**meliorasiya** — torpaqların hidrotexniki, mədəni-texniki, kimyəvi, aqro-meşəmeliorasiya, aqrotexniki və digər tədbirlərin aparılması yolu ilə əsaslı yaxşılaşdırılmasıdır;
**irriqasiya (suvarma)** — təbii su çatışmazlığı olan torpaqlarda əkinlərə suyun mühəndis-texniki və digər tədbirlərin aparılması yolu ilə verilməsidir;
**meliorasiya olunmuş (olunacaq) torpaqlar** — meliorasiya tədbirlərinin aparılması nəticəsində münbitliyi artırılmış (artırılacaq) torpaqlardır;
**suvarılan torpaqlar** — suvarma məqsədi ilə irriqasiya sistemləri və qurğuları ilə təmin olunmuş torpaqlardır;
**meliorasiya sistemləri** — meliorasiya olunmuş torpaqlarda su, duz, hava, istilik və qida rejimini tənzimləmək üçün istifadə olunan qarşılıqlı əlaqəli hidrotexniki və digər qurğular və tikililər kompleksi (meliorasiya olunmuş torpaqlarda yerləşən kanallar, kollektorlar, boru kəmərləri, su anbarları, bəndlər, nasos stansiyaları, sugötürücülər və digər qurğular və tikililər), habelə qoruyucu meşə əkinləridir;
**irriqasiya (suvarma) sistemləri** — suların su obyektlərindən götürülməsini, nəql edilməsini, paylanmasını və bitkilərin suvarılmasını təmin edən hidrotexniki və digər qurğular və tikililər kompleksi, habelə qoruyucu meşə əkinləridir;
**ayrılıqda yerləşən hidrotexniki qurğular** — meliorasiya və irriqasiya sistemlərinə daxil olmayan, suların istehlakçılara çatdırılmasını, meliorasiya sistemlərinin köməyi ilə artıq suların kənara axıdılmasını, torpaqların su eroziyasından və sürüşmədən mühafizəsini təmin edən mühəndis qurğuları, tikililəri və qoruyucu meşə əkinləri;
**meliorasiya və irriqasiya tədbirləri** — meliorasiya sistemlərinin irriqasiya sistemlərinin və ayrılıqda yerləşən hidrotexniki qurğuların (bundan sonra — meliorasiya və irriqasiya sistemləri) layihələndirilməsi, tikintisi, yenidən qurulması və istismarı, otlaqların su təchizatı, qoruyucu meşə əkinlərinin salınması, mədəni-texniki işlərin, torpaqların fiziki və aqrokimyəvi xassələrinin yaxşılaşdırılması işlərinin aparılması, göstərilən işlərin elmi və istehsal-texniki təminatıdır;
**Sudan İstifadəedənlər Birliyi (Birlik)** - istifadəsinə verilən meliorasiya və irriqasiya sistemlərini idarə etmək və xidmət göstərdiyi ərazidə əkinləri suvarma suyu ilə təmin etmək məqsədi ilə kənd təsərrüfatı istehsalçıları tərəfindən bu Qanuna uyğun yaradılan və fəaliyyət göstərən qeyri-kommersiya qurumunun xüsusi formasıdır. [1]

Maddə 2. **Meliorasiya və irriqasiya haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Meliorasiya və irriqasiya haqqında Azərbaycan Respublikasının qanunvericiliyi bu Qanundan və buna uyğun qəbul edilmiş digər normativ-hüquqi aktlardan ibarətdir.
Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində meliorasiya və irriqasiya haqqında Azərbaycan Respublikasının qanunvericiliyindən fərqli qaydalar müəyyən edilmişdirsə, beynəlxalq müqavilələrin qaydaları tətbiq edilir.

Maddə 3. **Meliorasiyanın və irriqasiyanın məqsədi**

Meliorasiyanın və irriqasiyanın məqsədi torpaqda əkinçilik üçün əlverişl i şərait yaradılması, torpağın münbitliyinin saxlanılması və yüksəldilməs i əsasında kənd təsərrüfatı məhsulları istehsalının sabitliyini və artırılmasını təmin etmək, az məhsuldar və istifadəsiz torpaqları yaxşılaşdırmaqla kənd təsərrüfatı dövriyyəsinə cəlb etməkdən ibarətdir.

Maddə 4. **Meliorasiyanın tipləri və növləri**

Meliorasiya tədbirlərinin xarakterindən asılı olaraq meliorasiyanın — hidromeliorasiya, aqromeşəmeliorasiya, mədəni-texniki meliorasiya, kimyəvi meliorasiya və digər tipləri vardır.
Meliorasiyanın hər bir tipi aşağıdakı növlərə bölünür:
**hidromeliorasiya üzrə** — suvarma, qurutma, şoran torpaqların yuyulması, erroziyaya, sürüşməyə, daşqına, sellərə qarşı mübarizə və s.;
**aqro-meşəmeliorasiya üzrə** — meşə əkinlərinin salınması yolu ilə həyata keçirilən torpaqqoruyucu tarlaqoruyucu, susaxlayıcı meliorasiya növləri və s.;
**mədəni-texniki meliorasiya üzrə** — torpaqların kol-kosdan, daş-kəsəkdən, ağac kötüklərindən və başqa əşyalardan təmizlənməsi, torpaqların rekultivasiyası və s.;
**kimyəvi meliorasiya üzrə** — torpaqların gipsləşdirilməsi və s.

II fəsil

**MELİORASİYA VƏ İRRİQASİYA SİSTEMLƏRİNƏ MÜLKİYYƏT HÜQUQU**

Maddə 5. **Meliorasiya və irriqasiya sistemlərində mülkiyyət**

Meliorasiya və irriqasiya sistemləri dövlət mülkiyyətində, bələdiyyə və xüsusi mülkiyyətdə ola bilər. *Dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan meliorasiya və irriqasiya sistemlərinin layihələrinin "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirinin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.* [2]

Maddə 6. **Dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemləri**

Dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinə bir və ya bir neçə rayonun ərazisində yerləşən, dövlət vəsaiti hesabına tikilmiş (tikilməkdə olan), rayonlararası və (və ya) təsərrüfatlararası su bölgüsünü, artıq və tullantı suların kənar

edilməsini və digər meliorasiya və irriqasiya tədbirlərinin aparılmasını təmin edən, habelə Azərbaycan Respublikası icra hakimiyyəti orqanlarının bu Qanunla müəyyən edilən səlahiyyətlərinin həyata keçirilməsi üçün istifadə olunan meliorasiya və irriqasiya sistemləri aiddir.

Dövlət əhəmiyyətli meliorasiya və irriqasiya sistemləri, onların layihələndirilməsini, tikintisini, istismarını və torpaqların meliorativ vəziyyətinə nəzarəti həyata keçirən təşkilatların obyektləri və digər əmlakı fiziki və hüquqi şəxslərin mülkiyyətinə verilə bilməz.

Sudan İstifadəedənlər Birliyinin xidmət göstərdiyi ərazidə yerləşən dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemləri bu Qanunun 9-cu maddəsində nəzərdə tutulmuş səlahiyyətləri həyata keçirən müvafiq icra hakimiyyəti orqanının qərarı ilə Birliyin uzunmüddətli istifadəsinə (20 ildən az olmayan müddətə) verilir. Sistemlərin istifadəyə verilməsi şərtləri və bu şərtlər pozulduğu halda onların geri alınması qaydası həmin qərarla müəyyən edilir. [3]

M a d d ə 7 . **Bələdiyyə mülkiyyətində olan meliorasiya və irriqasiya sistemləri**

Bələdiyyə mülkiyyətinə müvafiq ərazi vahidi daxilində dövlət mülkiyyətində, habelə fiziki və hüquqi şəxslərin mülkiyyətində və Birliklərin istifadəsində olmayan meliorasiya və irriqasiya sistemləri daxildir. [4]

M a d d ə 8 . **Meliorasiya və irriqasiya sistemləri üzərində fiziki və hüquqi şəxslərin mülkiyyəti**

Ümumi istifadədə (iki və daha çox fiziki və ya hüquqi şəxsin istifadəsində) və fərdi istifadədə (fiziki və ya hüquqi şəxsin istifadəsində) olan təsərrüfatdaxili meliorasiya və irriqasiya sistemləri fiziki və hüquqi şəxslərin mülkiyyətində ola bilər. İki və daha çox şəxsin sahibliyində olan meliorasiya və irriqasiya sistemləri həmin şəxslərin birgə mülkiyyətində hesab olunur.

I I I f ə s i l

## MELİORASİYA VƏ İRRİQASİYA SAHƏSİNDƏ İCRA HAKİMİYYƏTİ ORQANLARININ VƏ BƏLƏDİYYƏLƏRİN SƏLAHİYYƏTLƏRİ

M a d d ə 9 . **Meliorasiya və irriqasiya sahəsində Azərbaycan Respublikası icra hakimiyyəti orqanlarının səlahiyyətləri**

Meliorasiya və irriqasiya sahəsində Azərbaycan Respublikası icra hakimiyyəti orqanlarının səlahiyyətləri aşağıdakılardır:

meliorasiya və irriqasiya sahəsində dövlət siyasətini müəyyən etmək;

meliorasiya və irriqasiya sahəsində qanunvericiliyə riayət olunmasına nəzarət etmək;

bu Qanunun 6-cı maddəsinə uyğun olaraq Birliklərin istifadəsinə verilən sistemlər istisna olmaqla, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərini idarə etmək; [5]

müəyyən edilmiş qaydada meliorasiya və irriqasiya üzrə müvafiq orqanları yaratmaq;

meliorasiya və irriqasiya sahəsində respublika proqramlarını təsdiq etmək və həyata keçirmək, onların yerinə yetirilməsinə nəzarəti təşkil etmək;

dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemləri vasitəsilə həyata keçirilən meliorasiya tədbirlərinin maliyyələşdirilməsini və meliorasiya və irriqasiya sahəsinə investisiyaların cəlb olunmasını təmin etmək;

meliorasiya və irriqasiya sahəsində vahid elmi-texniki siyasəti həyata keçirmək;

meliorasiya və irriqasiya sahəsində standartları, normaları və qaydaları təsdiq etmək;

meliorasiya və irriqasiya sistemləri layihələrinin dövlət ekspertizasını təşkil etmək;

regionlar və rayonlar (şəhərlər) üzrə meliorasiya və irriqasiya sistemlərindən sugötürmə limitlərini müəyyən etmək;

təbii fəlakət nəticəsində zədələnmiş və ya dağıdılmış meliorasiya və irriqasiya sistemlərinin bərpasını təşkil etmək;

dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərindən istifadəyə dair rayonlar (şəhərlər) arasındakı mübahisələri həll etmək;

qanunvericiliklə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirmək.

M a d d ə 1 0 . **Meliorasiya və irriqasiya sahəsində Naxçıvan Muxtar Respublikası icra hakimiyyəti orqanlarının səlahiyyətləri**

Meliorasiya və irriqasiya sahəsində Naxçıvan Muxtar Respublikası icra hakimiyyəti orqanlarının səlahiyyətləri aşağıdakılardır:

meliorasiya və irriqasiya sahəsində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq normativ-hüquqi aktları qəbul etmək;

dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemləri vasitəsilə Muxtar Respublikanın ərazisində həyata keçirilən meliorasiya və irriqasiya tədbirlərinin maliyyələşdirilməsini təmin etmək;

Muxtar Respublika ərazisi üçün meliorasiya və irriqasiya proqramlarını hazırlamaq, təsdiq etmək və həyata keçirmək, onların yerinə yetirilməsinə nəzarəti təşkil etmək;

Muxtar Respublika üzrə dövlət meliorasiya və irriqasiya sistemlərindən sugötürmə limitlərini müəyyən etmək;

qanunvericiliklə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirmək.

M a d d ə 1 1 . **Meliorasiya və irriqasiya sahəsində bələdiyyələrin səlahiyyətləri**

Meliorasiya və irriqasiya sahəsində bələdiyyələrin səlahiyyətləri aşağıdakılardır:

bələdiyyə mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinə sahiblik, onlardan istifadə və onlar barədə sərəncam vermək;

Birliklərin fəaliyyətini dəstəkləmək; [6]

meliorasiya və irriqasiya tədbirləri həyata keçirilərkən müvafiq ərazilərdə ətraf mühitin mühafizəsi tələblərinə əməl olunmasına nəzarət etmək;

meliorasiya və irriqasiya sistemləri layihələrinin ekspertizasında iştirak etmək;

öz səlahiyyətləri daxilində meliorasiya və irriqasiya sahəsində fiziki və hüquqi şəxslərin fəaliyyətini əlaqələndirmək;

qanunvericiliklə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirmək.

I V f ə s i l

## MELİORASİYA VƏ İRRİQASİYA SAHƏSİNDƏ DÖVLƏT İDARƏETMƏSİ

M a d d ə 1 2 . **Meliorasiya və irriqasiya sahəsinin dövlət tərəfindən idarə olunması**

Meliorasiya və irriqasiya sahəsində dövlət idarəetməsi öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları, habelə meliorasiya və irriqasiya üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən ərazi quruluşu prinsipi əsasında həyata keçirilir. [7]

Meliorasiya və irriqasiya üzrə müvafiq icra hakimiyyəti orqanı respublika orqanından və onun yerli orqanlarından ibarətdir.

Meliorasiya və irriqasiya üzrə müvafiq icra hakimiyyəti orqanı müəyyən olunmuş qaydada təsdiq edilən əsasnaməyə uyğun fəaliyyət göstərir.

*Müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma onun balansında olan meliorasiya və su təsərrüfatı obyektlərinin layihələndirilməsi, tikintisi (inşası, cari və əsaslı təmiri, yenidən qurulması, bərpası), idarə olunması, saxlanılması, qorunması işlərinin görülməsi üçün lisenziya və siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan icazə alınması tələb olunmur.*[8]

M a d d ə 1 3 . **Meliorasiya və irriqasiya üzrə müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətləri**

Meliorasiya və irriqasiya üzrə müvafiq icra hakimiyyəti orqanının səlahiyyətləri aşağıdakılardır:

Birliyin xidmət göstərdiyi ərazidə yerləşən torpaqların istifadəçiləri istisna olmaqla, mülkiyyət formasından asılı olmayaraq torpaq istifadəçilərinin və uzunmüddətli sazişlərə uyğun olaraq Birliklərin suvarma suyu ilə təchiz edilməsi; [9]

meliorasiya və irriqasiya sahəsində respublika və regional (rayon) proqramlarının hazırlanması və həyata keçirilməsi;

meliorasiya və irriqasiya tədbirlərinin maliyyələşdirilməsinin təşkili;

Birliklərin istifadəsində olan sistemlər istisna olmaqla, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarının təşkili; [10]

su obyektlərindən götürülən suların müəyyən edilmiş qaydada bölüşdürülməsi və sudan istifadəyə nəzarət edilməsi;

meliorasiya və irriqasiya sistemlərinin pasportlaşdırılması və kadastrının aparılması;

suvarılan və meliorasiya olunmuş torpaqların uçotunun təşkili və monitorinqinin aparılması;

meliorasiya və irriqasiya sahəsində standartların, normaların və qaydaların işlənib hazırlanması;

meliorasiya və irriqasiya sistemləri layihələrinin dövlət ekspertizasının aparılması, onların təsdiq edilməsi;

meliorasiya və irriqasiya sahəsində elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin təşkili;

suvarılan və meliorasiya olunmuş torpaqların vəziyyətinə, meliorasiya və irriqasiya sistemlərinin istismarına nəzarət;

~~meliorasiya və irriqasiya sahəsində inzibati xətalar haqqında protokollar tərtib etmək və baxılması üçün müvafiq dövlət orqanlarına göndərmək;~~ [11]

bu Qanunun 30-14-cü maddəsinə uyğun olaraq Birliklərin fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsi; [12]

qanunvericiliklə müəyyən olunmuş digər səlahiyyətlər [13]

M a d d ə 1 4 . **Meliorasiya və irriqasiya sistemlərinin pasportlaşdırılması**

Meliorasiya və irriqasiya sistemləri pasportlaşdırılmalıdır. Pasportlaşdırma aparılarkən meliorasiya və irriqasiya sistemləri, habelə meliorasiya və irriqasiya sisteminə daxil olan və ya ayrılıqda yerləşən hər bir hidrotexniki qurğu üçün onların texniki xarakteristikası və vəziyyəti barədə məlumatları özündə əks etdirən pasport tərtib edilir.

Meliorasiya və irriqasiya sistemlərinin pasportlaşdırılması qaydaları ~~meliorasiya və irriqasiya üzrə~~ müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.[14]

M a d d ə 1 5 . **Suvarılan və meliorasiya olunmuş torpaqların uçotu**

Suvarılan və meliorasiya olunmuş torpaqların uçotu həmin torpaqların meliorativ vəziyyəti, hidrogeoloji, texniki və digər xüsusiyyətləri barədə məlumatların toplanmasıdır. Bu məlumatlar dövlət torpaq kadastrına daxil edilir.

Suvarılan və meliorasiya olunmuş torpaqların uçotu və uçot məlumatlarının dövlət torpaq kadastrına daxil edilməsi qaydaları Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə müəyyən edilir.

M a d d ə 1 6 . **Suvarılan və meliorasiya olunmuş torpaqların monitorinqi**

Suvarılan və meliorasiya olunmuş torpaqların monitorinqi dövlət torpaq monitorinqi sisteminin tərkib hissəsi olub, suvarılan və meliorasiya olunmuş torpaqların vəziyyətinə sistemli müşahidədir. Həmin müşahidələrə əsasən suvarılan və meliorasiya olunmuş torpaqların vəziyyətində baş verən dəyişikliklər aşkar edilir, onlar qiymətləndirilir və tədbirlər sistemi işlənib hazırlanır.

Torpaqların monitorinqi meliorasiya və irriqasiya üzrə müvafiq icra hakimiyyəti orqanı və elmi-tədqiqat institutları tərəfindən aparılır. Torpaqların monitorinqinin aparılması qaydaları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

M a d d ə 1 7 . **(Çıxarılıb)** [15]

M a d d ə 1 8 . **Meliorasiya və irriqasiya sistemlərinin tikintisi və yenidən qurulması layihələrinin dövlət ekspertizası**

Meliorasiya və irriqasiya sistemlərinin tikintisi və yenidən qurulması layihələrinin müvafiq normativlərə, texniki şərtlərə və tələblərə uyğunluğunu müəyyən etmək məqsədilə aparılan dövlət ekspertizası meliorasiya və irriqasiya üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır.

*Meliorasiya və irriqasiya sahəsində dövlət ekoloji ekspertizasının keçirilməsi üçün aşağıdakı fəaliyyət növləri üzrə layihələrin "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi əlavə edilir:*[16]

*çay hövzələri arasında su resurslarının bölüşdürülməsi;*

*su mənbələrindən istifadə (il ərzində istifadənin həcmi 10 mln. kubmetrdən artıq olduqda), eləcə də uzunluğu 20 km-dən, diametri 500 mm və daha çox olan su boru kəmərlərinin tikintisi;*

*hündürlüyü 15 metr və daha yüksək olan su bəndlərinin, su anbarlarının və başqa su tutumlarının (rezervuarların) tikintisi;*

*əhatə etdiyi sahə 1000 ha-dan çox olan irriqasiya və meliorasiya sistemləri, eləcə də magistral suvarma kanalları və*

*kollektorların tikintisi.*

*Mövcud meliorasiya və irriqasiya sistemləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin sistemlərin yenidən qurulması və ya həmin sistemlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin sistemlərə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişikliklər edilir.*

*Mövcud meliorasiya və irriqasiya sistemlərinin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.*

*Meliorasiya və irriqasiya sistemlərinə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin sistemlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq həll edilir.*[17]

V fəsil

## MELİORASİYA VƏ İRRİQASİYA TƏDBİRLƏRİNİN APARILMASI QAYDALARI

Maddə 19. **Meliorasiya və irriqasiya tədbirlərinin planlaşdırılması**

Meliorasiya və irriqasiya tədbirlərinin planlaşdırılması meliorasiya və irriqasiya üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən meliorasiya və irriqasiya sahəsində respublika və regional (rayon) proqramları, habelə bələdiyyələrin, birliklərin torpaq sahəsinin mülkiyyətçiləri və istifadəçiləri olan fiziki və hüquqi şəxslərin sifarişləri əsasında aparılır. [18]

Meliorasiyanın bu və ya digər növünün seçilməsi müvafiq ərazinin təbii-iqlim xüsusiyyətlərindən və kənd təsərrüfatının ehtiyaclarından asılı olaraq müəyyən edilir.

Bələdiyyələrin, torpaq sahəsinin mülkiyyətçiləri və istifadəçiləri olan fiziki və hüquqi şəxslərin sifarişi ilə meliorasiya və irriqasiya tədbirləri planlaşdırılarkən meliorasiyanın növləri və meliorasiya və irriqasiya tədbirinin miqyası müvafiq standartlara, normalara və qaydalara uyğun müəyyən edilir.

Maddə 20. **Meliorasiya və irriqasiya tədbirlərinin aparılması**

Meliorasiya və irriqasiya tədbirləri texniki-iqtisadi cəhətdən əsaslandırılmaqla, müvafiq tikinti, ekoloji, sanitariya və digər standartlara, normalara və qaydalara uyğun işlənib hazırlanmış layihələr əsasında ixtisaslaşdırılmış dövlət tikinti təşkilatları, habelə fiziki və hüquqi şəxslər tərəfindən aparılır.

Fəaliyyəti su obyektlərindən istifadə ilə bağlı olan meliorasiya və irriqasiya sistemlərinin layihələndirilməsi və tikintisi Azərbaycan Respublikasının su qanunvericiliyinə uyğun olaraq verilmiş sudan istifadəyə dair müqavilə əsasında həyata keçirilir. [19]

Torpaqların aqro-meşəmeliorasiyası bu Qanuna və Azərbaycan Respublikasının meşə qanunvericiliyinə uyğun həyata keçirilir.

Maddə 21. **Meliorasiya və irriqasiya tədbirlərinin aparılması üçün torpaqlardan istifadə qaydaları**

Müəyyən olunmuş qaydada meliorasiya olunacaq torpaqlara aid edilən torpaq sahələri meliorasiya və irriqasiya tədbirləri aparmaq üçün Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə uyğun olaraq layihədə göstərilən müddətə həmin tədbirləri aparan təşkilatlara verilir və onlardan geri alınır. Bu müddətdə meliorasiya tədbirləri aparılan sahələr əkin altında istifadə olunmur.

Dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin altındakı torpaq sahələri əvəzsiz olaraq həmin meliorasiya və irriqasiya sistemlərinin istismarını həyata keçirən təşkilatların daimi istifadəsinə verilir.

Meliorasiya və irriqasiya tədbirlərinin aparılmasını təmin etmək üçün meliorasiya olunmuş (olunacaq) torpaqlara bitişik torpaqlardan Azərbaycan Respublikasının mülki və torpaq qanunvericiliyinə uyğun olaraq istifadə oluna bilər.

Maddə 22. **Meliorasiya və irriqasiya tədbirlərinin aparılmasına ekoloji tələblər**

Meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi ətraf mühitin vəziyyətini pisləşdirməməlidir.

Meliorasiya və irriqasiya tədbirləri Azərbaycan Respublikasının torpaq, su, meşə qanunvericiliyinin, habelə Azərbaycan Respublikasının təbiəti mühafizə, yerin təki, bitki və heyvanat aləmi haqqında qanunvericiliyinin tələblərinə riayət edilməklə həyata keçirilməlidir.

Maddə 23. **Meliorasiya və irriqasiya sistemlərinin istismara qəbul edilməsi**

Meliorasiya və irriqasiya sistemlərinin, qoruyucu meşə əkinlərinin istismara qəbul edilməsi Azərbaycan Respublikası qanunvericiliyində müəyyən edilmiş qaydalara uyğun olaraq aparılır.

Maddə 24. **Suvarılan və meliorasiya olunmuş torpaqlarda yerləşən meliorasiya və irriqasiya sistemlərindən istifadə**

Ümumi istifadədə olan meliorasiya və irriqasiya sistemlərinin hüdudlarındakı torpaq sahələri fiziki şəxslərin mülkiyyətinə və istifadəsinə həmin sistemlərin bölünməməsi və onlardan istifadə texnologiyasına əməl olunması şərtilə verilə bilər.

Ümumi istifadədə olan meliorasiya və irriqasiya sistemlərinin hüdudlarında suvarılan və meliorasiya olunmuş torpaqlar fiziki şəxslər arasında bölüşdürüldükdə həmin şəxslər göstərilən sistemlərin saxlanmasını və təmirini istifadə etdikləri suyun həcminə və torpaq sahələrinə mütənasib olaraq payçılıq əsasında aparmalıdırlar. Fiziki şəxslər bu işləri müqavilə əsasında müvafiq təşkilatları cəlb etmək və ya yeni təşkilat yaratmaq yolu ilə həyata keçirə bilərlər.

(Çıxarılıb) [20]

Maddə 25. **Meliorasiya və irriqasiya sistemlərinin istifadəsi zamanı su münasibətlərinin tənzimlənməsi**

Meliorasiya və irriqasiya sistemlərinin istifadəsi zamanı su münasibətləri Azərbaycan Respublikasının su qanunvericiliyi ilə tənzimlənir.

Su ehtiyatlarından səmərəli istifadə olunması, su təminatına yönəldilmiş dövlət xərclərinin ödənilməsi, suyun dəqiq uçotunun aparılması məqsədi ilə sudan *ödənişli* istifadə tətbiq edilir.[21]

Sudan *ödənişli* istifadə mərhələlərlə həyata keçirilir.

*Sudan ödənişli istifadə qaydaları Azərbaycan Respublikasının Su Məcəlləsinin 97-ci maddəsinə uyğun olaraq müəyyən edilir.*

Birliklərin suvarma suyu ilə təchiz edilməsi bu Qanunun 13-cü maddəsində nəzərdə tutulmuş səlahiyyətləri həyata keçirən müvafiq icra hakimiyyəti orqanı ilə 10 ildən az olmayan müddətə bağlanan sazişə əsasən həyata keçirilir. Su mənbələrində suyun bolluğu səviyyəsinə mütənasib olaraq veriləcək suyun həcminin yuxarı və aşağı hədləri həmin sazişdə müəyyən olunur. Əkinlərin növündən və sahəsindən asılı olaraq tələb olunan suyun həcmləri və suyun verilməsi qrafiki bu hədlər daxilində illik müqavilələrlə müəyyən edilir. Sazişlərin və illik müqavilələrin formaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Suyun müqavilədə nəzərdə tutulmuş həcmlərdə və vaxtlarda verilmədiyinə görə Birliyə vurulmuş zərərin əvəzi mülki qanunvericiliyə uyğun olaraq ödənilir.

Birliklərin öz üzvlərinə və üzvü olmayan şəxslərə verdiyi suya görə haqları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi su tarifləri, habelə istifadəsində olan meliorasiya və irriqasiya sistemlərinin saxlanmasına, istismarına, yaxşılaşdırılmasına və inkişafına tələb olunan xərclər nəzərə alınmaqla, Birlik müəyyən edir və bu barədə bu Qanunun 13-cü maddəsində nəzərdə tutulmuş səlahiyyətləri həyata keçirən müvafiq icra hakimiyyəti orqanının yerli təşkilatına məlumat verir. Birlik xidmət etdiyi ərazidəki üzvü olmayan torpaq sahibləri üçün daha yüksək su haqlarını müəyyən edə bilər.[22]

M a d d ə 2 6 . **Meliorasiya və irriqasiya sistemlərinin istismarı**

Meliorasiya və irriqasiya sistemlərini, qoruyucu meşə əkinlərini istismar edən fiziki və hüquqi şəxslər həmin obyektləri saz (lazımi) vəziyyətdə saxlamalı və onların korlanmasına yol verməməlidirlər.

Meliorasiya və irriqasiya sistemlərinin, qoruyucu meşə əkinlərinin saz (lazımi) vəziyyətdə saxlanması:

dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemləri (Birliklərin istifadəsinə verilən sistemlər istisna olmaqla), qoruyucu meşə əkinləri üzrə — meliorasiya və ya irriqasiya üzrə müvafiq icra hakimiyyəti orqanı;[23]

Birliklərin istifadəsinə verilən dövlət meliorasiya və irriqasiya sistemləri, qoruyucu meşə əkinləri üzrə - Birliklər;[24]

bələdiyyə mülkiyyətində olan meliorasiya və irriqasiya sistemləri, qoruyucu meşə əkinləri üzrə — bələdiyyələr;

ümumi və fərdi istifadədə, fiziki və hüquqi şəxslərin mülkiyyətində olan meliorasiya və irriqasiya sistemləri, qoruyucu meşə əkinləri üzrə — həmin obyektlərin mülkiyyətçiləri və istifadəçiləri tərəfindən təşkil edilir.

Meliorasiya və irriqasiya sistemlərinin istismarı və qoruyucu meşə əkinlərinin saxlanması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.[25]

Meliorasiya və irriqasiya sistemlərinin istismarı və qoruyucu meşə əkinlərinin saxlanması qaydalarına riayət etmək bütün fiziki və hüquqi şəxslər üçün məcburidir.

M a d d ə 2 7 . **Meliorasiya və irriqasiya sistemlərinin mühafizəsi**

Suvarılan və meliorasiya olunmuş (olunacaq) torpaqlarda hər cür fəaliyyət meliorasiya və irriqasiya üzrə müvafiq icra hakimiyyəti orqanlarının tələblərinə uyğun həyata keçirilməlidir.

Suvarılan və meliorasiya olunmuş (olunacaq) torpaqlarda meliorasiya və irriqasiya ilə əlaqədar olmayan tikinti və digər işlərin görülməsi torpaqların su, hava və qida rejimini pisləşdirməməli, meliorasiya və irriqasiya sistemlərinin, qoruyucu meşə əkinlərinin istismarına mane olmamalıdır.

Suvarılan və meliorasiya olunmuş (olunacaq) torpaqlarda rabitə və elektrik xətlərinin, boru kəmərlərinin, yolların və digər obyektlərin tikintisi və istismarı meliorasiya və irriqasiya üzrə müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla həyata keçirilməlidir.

## V I f ə s i l

## MELİORASİYA VƏ İRRİQASİYA TƏDBİRLƏRİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ

M a d d ə 2 8 . **Meliorasiya və irriqasiya tədbirlərinin maliyyələşdirilməsinin əsasları**

Meliorasiya və irriqasiya tədbirləri dövlət büdcəsinin, habelə suvarılan və meliorasiya olunmuş (olunacaq) torpaqların mülkiyyətçiləri və ya istifadəçiləri olan bələdiyyələrin, Birliklərin, fiziki və hüquqi şəxslərin vəsaiti, suvarma suyuna ödənişlər və qanunla qadağan olunmayan digər vəsaitlər hesabına maliyyələşdirilir.[26]

M a d d ə 2 9 . **Meliorasiya və irriqasiya tədbirlərinin dövlət büdcəsi hesabına maliyyələşdirilməsi**

Dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemləri vasitəsilə yerinə yetirilən meliorasiya və irriqasiya tədbirləri dövlət büdcəsindən ayrılan vəsait hesabına maliyyələşdirilir.

Təbii fəlakət nəticəsində zədələnmiş və ya dağıdılmış meliorasiya və irriqasiya sistemlərinin bərpa olunması müəyyən olunmuş qaydada dövlət büdcəsinin, habelə həmin sistemlərdən istifadə edən fiziki və hüquqi şəxslərin vəsaiti və digər vəsaitlər hesabına həyata keçirilir.[27]

M a d d ə 3 0 . **Meliorasiya və irriqasiya tədbirlərinin maliyyələşdirilməsində bələdiyyələrin, fiziki və hüquqi şəxslərin iştirakı**

Bələdiyyələrin, torpaq sahələrinin mülkiyyətçiləri və ya istifadəçiləri olan fiziki və hüquqi şəxslərin sifarişləri əsasında aparılan meliorasiya və irriqasiya tədbirləri sifarişçilər tərəfindən maliyyələşdirilir.

## VI-I fəsil[28]

## SUDAN İSTİFADƏEDƏNLƏR BİRLİYİ

Maddə 30-1. **Birliyin məqsədi və vəzifələri**

Sudan İstifadəedənlər Birliyinin məqsədi xidmət göstərdiyi ərazidə istifadəsində olan meliorasiya və irriqasiya sistemlərini idarə etmək və torpaq istifadəçilərini mütəşəkkil, səmərəli və ədalətli olaraq su ilə təmin etməkdir.

Birliyin xidmət göstərdiyi ərazi onun istifadəsində olan meliorasiya və irriqasiya sistemindən suvarıla bilən müəyyən torpaq sahələrini əhatə edir.

Birlik bu Qanuna, digər normativ hüquqi aktlara və öz nizamnaməsinə uyğun olaraq qeyri-kommersiya qurumunun xüsusi formasında yaradılır və fəaliyyət göstərir.

Birlik öz fəaliyyəti nəticəsində əldə etdiyi mənfəəti üzvləri arasında bölüşdürmədən istifadəsində olan meliorasiya və irriqasiya sistemlərinin saxlanmasına və inkişafına yönəldir və bu məqsədlə fond yaradır.

Birliyin fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır:

istifadəsində olan meliorasiya və irriqasiya sistemlərinin istismarı və ümumi yığıncağın təsdiq etdiyi plana əsasən üzvlərinin arasında suvarma suyunun paylanması;

xidmət göstərdiyi ərazidə torpaq sahiblərini suvarma suyu ilə təmin etmək üçün uzunmüddətli sazişə və illik müqavilələrə əsasən su təchizatı müəssisəsindən suyun satın alınması;

istifadəsində olan meliorasiya və irriqasiya sistemlərinin bərpası, istismarı, onlarda tikinti-təmir işlərinin aparılması, hidrotexniki avadanlığın alınması, saxlanması və istismarı;

üzvlərin sifarişinə əsasən meliorasiya xidmətlərinin göstərilməsi;

xidmət göstərdiyi ərazidə suların mühafizəsinin, onların çirklənməkdən, zibillənməkdən və tükənməkdən qorunmasının təmin edilməsi;

nizamnamə məqsədlərinə uyğun digər vəzifələr.

Birlik xidmət göstərdiyi ərazidə üzvü olmayan torpaq sahiblərini illik müqavilələrə əsasən suvarma suyu ilə təchiz edə bilər.

Maddə 30-2. **Birliyin üzvləri**

Birliyin xidmət göstərdiyi ərazidə yerləşən torpaqların üzərində mülkiyyət və ya ən azı üç il müddətində istifadə hüququ olan fiziki və hüquqi şəxslər Birliyin üzvü ola bilərlər.

Aşağıdakı halların aradan qaldırılmasınadək ərizə ilə müraciət edən şəxslərin Birliyə qəbul olunmasından imtina edilə bilər:

ərizə verildiyi günədək ötən iki il ərzində şəxs Birlikdən xaric edilmişdirsə;

şəxsin istifadə etdiyi torpağın sabiq sahibinin Birliyə borcu olduqda;

ərizə suvarma mövsümü ərəfəsində verildikdə.

Birliyin üzvü idarə heyətinin təklifinə əsasən ümumi yığıncağın qərarı ilə aşağıdakı hallarda üzvlükdən xaric edilə bilər:

nizamnaməni və ya ümumi yığıncağın qərarını mütəmadi olaraq pozduqda;

su haqqını ödəmədikdə;

meliorasiya və irriqasiya sistemlərinə, qurğu və avadanlığa vurduğu zərərin ödənilməsindən və ya onların bərpa edilməsindən əsassız olaraq imtina etdikdə;

dəfələrlə özbaşına su götürdükdə və ya suyun paylanması cədvəlini pozduqda.

Üzv Birlikdən xaric edilməsi haqqında ümumi yığıncağın qərarından məhkəməyə şikayət edə bilər.

Birlikdə üzvlüyə aşağıdakı hallarda xitam verilir:

suvarılan torpağın üzərində mülkiyyət və ya istifadə hüququna xitam verildikdə;

Birlikdən çıxması barədə ərizə verdikdə.

Birlikdən çıxan və ya xaric edilən üzv Birlik qarşısında olan borclarını ödəməli və öhdəliklərini yerinə yetirməlidir.

Maddə 30-3. **Birliyin üzvlərinin hüquq və vəzifələri**

Birliyin üzvlərinin aşağıdakı hüquqları var:

sudan ədalətli pay almaq və Birliyin göstərdiyi xidmətlərdən istifadə etmək;

su haqqını ödədiyi təqdirdə səsvermədə iştirak etmək;

Birliyin orqanlarına namizədləri irəli sürmək və seçilmək, ümumi yığıncağın gündəliyinə dair təkliflər vermək;

Birlik tərəfindən onlara vurulan zərərin əvəzini almaq;

Birliyin mühasibat kitabları, hesabları və digər sənədləri ilə tanış olmaq.

Birlik üzvlərinin aşağıdakı vəzifələri var:

nizamnaməyə və ümumi yığıncağın qəbul etdiyi qərar, təlimat və digər sənədlərə, o cümlədən suyun paylanması cədvəlinə riayət etmək;

su haqlarını vaxtında və tam ödəmək;

torpağında yerləşən hidrotexniki qurğu və avadanlıqdan istifadəyə, üzərində təmir işlərinin aparılmasına Birliyə icazə vermək;

Birliyin qurğu və avadanlığına vurduğu zərərin əvəzini ödəmək;

suvarılan torpaqlardan və sudan istifadə etmələrinə dair məlumatı Birliyə təqdim etmək.

Nizamnamədə əlavə hüquq və vəzifələr nəzərdə tutula bilər.

Maddə 30-4. **Birliyin nizamnaməsi**

Birliyin nizamnaməsində aşağıdakılar göstərilməlidir:

Birliyin tam adı və olduğu yer (ünvanı);

Birliyin məqsədi və funksiyaları;

üzvlərin hüquq və vəzifələri, Birliyin üzvlüyünə qəbul etmə, Birlikdən çıxma və xaric etmə qaydası;

Birliyin orqanlarının səlahiyyətləri, tərkibi, seçilməsi müddəti;

üzvlərin nümayəndələrinin seçilməsi qaydası;

su haqlarının ödənilməsi qaydası;

Birliyin ləğv edilməsi qaydası;

bu Qanundan irəli gələn digər müddəalar.

Birliyin nizamnaməsinə onun xidmət göstərdiyi ərazinin sxematik planı əlavə olunur.

Maddə 30-5. **Birliyin təsis edilməsi**

Birliyin təsis edilməsi üzrə təşəbbüs qrupu bu Qanunun 13-cü maddəsində nəzərdə tutulmuş səlahiyyətləri həyata keçirən müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi nümunəvi nizamnaməyə uyğun hazırlanmış nizamnamənin layihəsini, Birliyin xidmət göstərdiyi ərazinin sxematik planını, təsisçilərin siyahısını hazırlayır, sənədlərin təsisçilər tərəfindən müzakirəsini təşkil edir və bu Qanunun 13-cü maddəsində nəzərdə tutulmuş səlahiyyətləri həyata keçirən müvafiq icra hakimiyyəti orqanının yerli təşkilatı ilə xidmət göstərdiyi ərazinin sxematik planını razılaşdıraraq təsis yığıncağını çağırır.

Təsis yığıncağı Birliyin yaradılması haqqında qərar qəbul edir, nizamnaməni təsdiq edir və idarə heyətini seçir.

Birliyin xidmət etdiyi ərazidə yerləşən torpaqların azı 50 faizinə sahib olan şəxslərin yarısından çoxu lehinə səs verərlərsə, Birlik təsis edilmiş hesab olunur.

Birliyin dövlət qeydiyyatına alınması üçün təsis sənədləri yığıncağın keçirildiyi gündən bir ay müddətində idarə heyəti tərəfindən təqdim olunmalıdır.

Maddə 30-6. **Birliyin orqanları**

Birliyin orqanları aşağıdakılardır:
ümumi yığıncaq,
idarə heyəti,
təftiş komissiyası,
mübahisələrin həlli üzrə komissiya.

Maddə 30-7. **Ümumi yığıncaq**

Ümumi yığıncaq Birliyin ali idarəetmə orqanıdır. Növbəti ümumi yığıncaq ildə bir dəfədən az olmayaraq idarə heyəti tərəfindən çağırılır. Növbədənkənar ümumi yığıncaq isə idarə heyəti tərəfindən onun öz təşəbbüsü ilə və ya Birlik üzvlərinin azı 20 faizinin tələbi ilə çağırılır.

Aşağıdakı məsələlər ümumi yığıncağın müstəsna səlahiyyətinə aiddir:
nizamnamədə dəyişikliklərin edilməsi;
idarə heyətinin və digər orqanların üzvlərinin seçilməsi;
Birliyin illik büdcəsinin, hesabatının (büdcənin icrası haqqında daxil olmaqla), iş planlarının və suyun paylanması cədvəlinin təsdiq edilməsi;
su haqlarının və cərimələrin miqdarının təsdiq edilməsi;
Birliyin ləğv edilməsi.

Birliyin nizamnaməsində ümumi yığıncağın digər səlahiyyətləri də nəzərdə tutula bilər.

Birliyin xidmət göstərdiyi ərazi kənd, kanal və ya torpaq sahələri üzrə nümayəndəlik zonalarına bölünür və hər zonadan nümayəndə seçilir.

Ümumi yığıncaqda üzvlərin nümayəndələri, Birliyin üzvlərinin sayı çox deyildirsə, onların özləri iştirak edirlər.

Ümumi yığıncaqda qərarın qəbul edilməsi üçün yetərsay üzvlərin və ya onların nümayəndələrinin yarısından çoxunun iştirakıdır. Ümumi yığıncaqda üzvlərin nümayəndəsi iştirak edirsə, həmin üzvlər səsvermə hüququ olmadan iştirak edə bilərlər. Ümumi yığıncaqda nizamnamədə dəyişikliklərin edilməsinə və Birliyin ləğv edilməsinə dair qərarlar səslərin üçdə iki, digər qərarlar isə sadə səs çoxluğu ilə qəbul olunur.

Maddə 30-8. **Səslərin bölüşdürülməsi**

Ümumi yığıncaqda hər bir nümayəndə bir səsə malikdir.

Nümayəndələrin seçkisində və ya nümayəndələr seçilmirsə, ümumi yığıncaqda üzvlərin arasında səslər nizamnamədə müəyyən edilən aşağıdakı qaydalardan biri əsasında bölüşdürülür:
bir üzvün torpağın sahəsinin ölçüsündən asılı olmayaraq bir səsi var;
bir üzvün torpağın sahəsinin ölçüsünə mütənasib olaraq səsləri var;
bir üzvün keçən ildə ödədiyi su haqqının məbləğinə mütənasib olaraq səsləri var.

Hər bir üzv azı bir səsə və ən çox bütün səslərin dörddə birinə malik ola bilər.

Maddə 30-9. İdarə heyəti

İdarə heyəti ümumi yığıncaqda Birliyin üzvlərindən seçilir.

İdarə heyəti:
Birliyin fəaliyyətinə ümumi rəhbərlik edir;
Birliyi üçüncü şəxslərlə münasibətdə təmsil edir;
ümumi yığıncaqları çağırır və onların gündəliklərini hazırlayır;
yeni üzvlərin qəbul edilməsi, üzvlükdən çıxması və xaric edilməsi məsələlərinə baxır;
ümumi yığıncağın təsdiqinə verilən büdcəni, hesabatları, iş planlarının və suyun paylanması cədvəlinin layihələrini müzakirə edir;
təsdiq olunmuş büdcə və planlara uyğun müqavilələri bağlayır;
Birliyin muzdlu işçilərini işə qəbul edir və işdən azad edir;
Birliyin əməliyyatlarının monitorinqini aparır;
öz üzvlərindən sədri seçir;
nizamnamədə müəyyən edilən digər funksiyaları yerinə yetirir.

İdarə heyətinin tərkibi 3 nəfərdən az və 9 nəfərdən çox olmamalıdır.

Nizamnamədə nəzərdə tutulduğu halda idarə heyətinə Birliyin xidmət göstərdiyi ərazinin daxilində müəyyən zonaları təmsil edən üzvlər seçilə bilər.

İdarə heyətinin üzvlərinin sayı, seçilmə müddəti, iclaslarının çağırılması və keçirilməsi qaydası nizamnamə ilə müəyyən edilir.

Maddə 30-10**. Təftiş komissiyası**

Təftiş komissiyası üç nəfərdən ibarət olmaqla ümumi yığıncaq tərəfindən Birlik üzvlərindən seçilir. Təftiş komissiyası Birliyin hesablarını, balansını, habelə ümumi yığıncağın qərarlarının icrasını yoxlayır. Yoxlamaların nəticələri barədə məlumat, o cümlədən pozuntular aşkar edilmişdirsə, onların aradan qaldırılmasına dair tövsiyələr və tələblər ümumi yığıncağa və idarə heyətinə təqdim olunur.

Birliyin maliyyə-təsərrüfat fəaliyyəti haqqında illik hesabat təftiş komissiyası tərəfindən yoxlanıldıqdan sonra ümumi yığıncağa təqdim edilir.

Təftiş komissiyasının iş qaydası nizamnamə və ya ümumi yığıncağın təsdiq etdiyi əsasnamə ilə müəyyən edilir.

Maddə 30-11. **Mübahisələrin həlli üzrə komissiya**

Mübahisələrin həlli üzrə komissiya beş nəfərdən ibarət olmaqla ümumi yığıncaq tərəfindən Birlik üzvlərindən seçilir. Bu komissiya suyun paylanmasına dair mübahisələrə baxır.

Birliyin üzvlərinin və onun xidmət göstərdiyi ərazidə yerləşən torpaqların digər sahiblərinin yazılı şikayətlərinə komissiyanın

iclasında mübahisə edən tərəflərin iştirakı ilə 10 gün müddətində baxılmalıdır.

Mübahisələrin həlli üzrə komissiya şikayətin təmin edilməsi və ya şikayətin əsassız olduğunu müəyyən etdiyi halda onun rədd edilməsi haqqında qərar qəbul edir.

Komissiyanın qərarının yerinə yetirilməməsinə görə aşağıdakı məcburiyyət tədbirləri tətbiq edilə bilər:

Birlik tərəfindən göstərilən xidmətlərin dayandırılması;

üzvlükdən xaric edilməsi;

nizamnamə ilə nəzərdə tutulmuş qaydada digər sanksiyaların tətbiq edilməsi.

Mübahisələrin həlli üzrə komissiyanın qərarından ümumi yığıncağa və məhkəməyə şikayət edilə bilər.

Maddə 30-12. **Birliyin orqanlarının üzvlərinə dair tələblər**

Birlik qarşısında yerinə yetirilməmiş öhdəlikləri, o cümlədən ona borcları olan şəxslər Birliyin idarə heyətinin və digər orqanlarının üzvü ola bilməzlər.

Birliyin orqanlarının üzvlərinə əmək haqqı verilmir, lakin öz vəzifələrini yerinə yetirməsi ilə əlaqədar çəkdikləri xərclərin əvəzi nizamnaməyə və büdcəyə uyğun olaraq ödənilir.

Eyni şəxs həm idarə heyətinin, həm də komissiyanın üzvü və ya Birliyin muzdlu işçisi kimi eyni zamanda fəaliyyət göstərə bilməz. Birliyin üzvü olan muzdlu işçi idarə heyətinə və ya komissiyaya üzv, yaxud zona nümayəndəsi seçildikdə muzdlu işçi vəzifəsindən azad olunmalıdır.

Öz vəzifələrini yerinə yetirməyən və ya lazımi qaydada yerinə yetirməyən, yaxud cinayət əməlini törətmiş idarə heyəti və ya komissiyanın üzvü ümumi yığıncağın qərarı ilə vaxtından əvvəl vəzifəsindən azad edilə bilər.

M a d d ə 3 0-13. **Birliyin muzdlu işçiləri**

İdarə heyəti Birliyin cari fəaliyyətini təmin etmək məqsədilə büdcəyə uyğun olaraq əmək müqaviləsi əsasında muzdlu işçiləri işə qəbul edə bilər.

Muzdlu işçilər:

Birliklərin maliyyə-təsərrüfat əməliyyatlarını təmin edirlər;

illik büdcə və suyun paylanması cədvəli layihələrini hazırlayırlar;

illik balansı, gəlir və xərclər hesabatlarını və digər sənədləri hazırlayırlar;

Birliyin üzvlərinin və üzvü olmayan şəxslərin torpaq sahələrinin və onlara verilən suyun uçotunu aparırlar;

su haqlarının yığılmasını təşkil edirlər;

bu Qanunun 13-cü maddəsində nəzərdə tutulmuş səlahiyyətləri həyata keçirən müvafiq icra hakimiyyəti orqanının yerli təşkilatının iştirakı ilə meliorasiya və iniqasiya sistemlərinin, hidrotexniki qurğuların texniki vəziyyətinə baxış keçirir və inventarlaşdırılmasını aparırlar;

nizamnamədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirirlər.

Birliyini muzdlu işçiləri idarə heyətinə hesabat verirlər.

M a d d ə 3 0-14. **Birliyin fəaliyyətinə dövlət nəzarəti**

Birliyin fəaliyyətinə dövlət nəzarəti bu Qanunun 13-cü maddəsində nəzərdə tutulmuş səlahiyyətləri həyata keçirən müvafiq icra hakimiyyəti orqanı (bundan sonra - dövlət nəzarəti orqanı) tərəfindən həyata keçirilir.

Dövlət nəzarəti orqanı Birliklərin reyestrini aparır, meliorasiya və irriqasiya sistemlərinin istismarı üzrə monitorinqi keçirir, texniki, hüquqi və iqtisadi məsələlər üzrə məsləhət yardımı göstərir.

Birlik ümumi yığıncaq tərəfindən təsdiq edilən illik balansı, hesabatı və müəyyən edilmiş formada digər hesabatları, habelə öz üzvlərinə və üzvü olmayan şəxslərə verdiyi suyun qiymətinin (su haqlarının) əsaslandırılmasını dövlət nəzarəti orqanına təqdim etməlidir.

Birlik tərəfindən əsassız olaraq həddən artıq yüksək və ya aşağı su haqlarə müəyyən edildikdə dövlət nəzarəti orqanı Birlik qarşısında su haqlarının miqdarına yenidən baxmaq barəsində məsələni qaldıra bilər.

Dövlət nəzarəti orqanı təqdim olunmuş sənədlərdə uyğunsuzluqlar, şübhəli və natamam məlumatları aşkar edərsə və ya üzvlərin pozuntular haqqında əsaslandırılmış ərizəsi daxil olarsa, Birliyin fəaliyyətini yoxlaya bilər.

Birliyin fəaliyyətinin yoxlanması nəticəsində ciddi pozuntular aşkar edilərsə, dövlət nəzarəti orqanı müvafiq qərarın qəbul edilməsi üçün idarə heyətindən ümumi yığıncağın çağırılmasını tələb edə bilər. İdarə heyəti 30 gün ərzində ümumi yığıncağı çağırmaqdan boyun qaçırarsa, dövlət nəzarəti orqanı idarə heyətini işdən kənarlaşdırır və ümumi yığıncağı çağırır. İdarə heyəti yeni tərkibdə seçilənədək Birlik dövlət nəzarəti orqanının təyin etdiyi müvəqqəti rəhbər tərəfindən idarə olunur.

Maddə 30-15. **Birliklərin qeydiyyatı**

Bu Qanun qüvvəyə minənədək "Sudan İstifadəedənlər Assosiasiyası" kimi yaradılmış hüquqi şəxslər öz nizamnamələrini bu Qanuna uyğunlaşdırmalı və qanunvericiliyə uyğun olaraq yenidən dövlət qeydiyyatından keçməlidirlər

## V I I f ə s i l

## MELİORASİYA VƏ İRRİQASİYA SAHƏSİNDƏ MÜBAHİSƏLƏRİN HƏLLİ. MELİORASİYA VƏ İRRİQASİYA QANUNVERİCİLİYİNİN POZULMASINA GÖRƏ MƏSULİYYƏT

M a d d ə 3 1 . **Meliorasiya və irriqasiya sahəsində mübahisələrin həlli**

Meliorasiya və irriqasiya sahəsində fiziki şəxslər və (və ya) hüquqi şəxslər arasındakı mübahisələrə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada məhkəmə tərəfindən baxılır.

M a d d ə 3 2 . **Meliorasiya və irriqasiya qanunvericiliyinin pozulmasına görə məsuliyyət**

Meliorasiya və irriqasiya qanunvericiliyinin pozulmasında təqsirkar olan *şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun məsuliyyət* daşıyırlar.[29]

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV**

Bakı şəhəri, 5 iyun 1996-cı il
116-IQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 19 aprel 2002-ci il tarixli 306-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 5, maddə 237**)
2. 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 2, maddə 57**)
3. 9 mart 2004-cü il tarixli 603-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-ci il, 4, maddə 202**)
4. 30 aprel 2004-cü il tarixli 644-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 6, maddə 398**)
5. 1 oktyabr 2007-ci il tarixli 423-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1048**)
6. 30 sentyabr 2015-ci il tarixli **1335-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 4 noyabr 2015-ci il, 242 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 10, maddə 1098**)
7. 30 sentyabr 2016-cı il tarixli **312-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 16 noyabr 2016-cı il, 253 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1750** )
8. 7 aprel 2017-ci il tarixli **552-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 2 iyun 2017-ci il, 117 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 683** )
9. 2 oktyabr 2017-ci il tarixli **788-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 18 noyabr 2017-ci il, 254 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 1950**)
10. 15 dekabr 2017-ci il tarixli **925-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 4 fevral 2018-ci il, 26 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, maddə 10**)
11. 13 fevral 2018-ci il tarixli **997-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 3 mart 2018-ci il, 49 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 165**)
12. 3 may 2019-cu il tarixli **1579-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyun 2019-cu il, 128 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6, maddə 988**)

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] 30 aprel 2004-cü il tarixli 644-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 6, maddə 398**) ilə maddə 1-də maddənin sonuna yeni abzas əlavə olunmuşdur.

[2] 3 may 2019-cu il tarixli **1579-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyun 2019-cu il, 128 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6, maddə 988**) ilə 5-ci maddəyə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[3] 30 aprel 2004-cü il tarixli 644-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 6, maddə 398**) ilə maddə 6-da üçüncü hissə əlavə olunmuşdur.

[4] 19 aprel 2002-ci il tarixli 306-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 5, maddə 237**) ilə 7-ci maddədən **"inzibati"** sözü çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:
~~Bələdiyyə mülkiyyətinə müvafiq inzibati ərazi vahidi daxilində dövlət mülkiyyətində, habelə fiziki və hüquqi şəxslərin mülkiyyətində olmayan meliorasiya və irriqasiya sistemləri daxildir.~~

30 aprel 2004-cü il tarixli 644-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 6, maddə 398) ilə maddə 7-də "**hüquqi şəxslərin mülkiyyətində**" sözlərindən sonra **"və Birliklərin istifadəsində"** sözləri əlavə olunmuşdur.

[5] 30 aprel 2004-cü il tarixli 644-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 6, maddə 398**) ilə maddə 9-da dördüncü abzas yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:
~~dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərini idarə etmək~~

[6] 30 aprel 2004-cü il tarixli 644-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 6, maddə 398**) ilə maddə 11-də ikinci abzasdan sonra yeni abzas əlavə edilmişdir.

[7] 19 aprel 2002-ci il tarixli 306-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 5, maddə 237**) ilə 12-ci maddənin birinci hissəsində **"inzibati ərazi"** sözləri "**ərazi quruluşu"** sözləri ilə əvəz edilmişdir.

[8] 30 sentyabr 2016-cı il tarixli **312-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 16 noyabr 2016-cı il, 253 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1750** ) ilə 12-ci maddəsinə yeni məzmunda dördüncü hissə əlavə edilmişdir.

7 aprel 2017-ci il tarixli **552-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 2 iyun 2017-ci il, 117 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 683** ) ilə 12-ci maddənin dördüncü hissəsində "**Meliorasiya və irriqasiya üzrə müvafiq**" sözləri "**Müvafiq**" sözü ilə əvəz edilmişdir.

2 oktyabr 2017-ci il tarixli **788-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 18 noyabr 2017-ci il, 254 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 1950**) ilə 12-ci maddənin dördüncü hissəsində "**qurumun**" sözü "**quruma onun**" sözləri ilə və "**icazə alınması tələb olunduqda, həmin lisenziya və icazə alınmış hesab edilir və yenidən** " sözləri "**siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan icazə**" sözləri ilə əvəz edilmişdir.

**[9]** 30 aprel 2004-cü il tarixli 644-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 6, maddə 398**) ilə maddə 13-də ikinci abzas yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:
~~mülkiyyət formasından asılı olmayaraq torpaq istifadəçilərini suvarma suyu ilə təmin etmək~~

[10] 30 aprel 2004-cü il tarixli 644-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 6, maddə 398**) ilə maddə 13-də beşinci abzas yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:
~~dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemləri istismarının təşkili;~~

**[11]** 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 2, maddə 57**) ilə 13-cü maddəyə on dördüncü abzas əlavə edilmişdir.

15 dekabr 2017-ci il tarixli **925-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 4 fevral 2018-ci il, 26 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, maddə 10**) ilə 13-cü maddənin on üçüncü abzası ləğv edilmişdir.

**[12]** 30 aprel 2004-cü il tarixli 644-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 6, maddə 398**) ilə maddə 13-də sonuncu abzasdan əvvəl yeni abzas əlavə olunmuşdur.

**[13]** 1 oktyabr 2007-ci il tarixli 423-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1048**) ilə 13-cü maddənin on beşinci abzası yeni redaksiyada verilsin və 15-ci abzas 13-cü abzas, 13-cü abzas 15-ci abzas hesab edilmişdir.

**[14]** 1 oktyabr 2007-ci il tarixli 423-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1048**) ilə 14-cü maddənin ikinci hissəsindən " **meliorasiya və irriqasiya üzrə**" sözləri çıxarılmışdır.

on beşinci abzasın əvvəlki redaksiyada deyilirdi:
~~meliorasiya və irriqasiya sahəsində qanunvericilikdə nəzərdə tutulmuş hallarda inzibati xətalar haqqında işlərə baxılması.~~

**[15]** 30 aprel 2004-cü il tarixli 644-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 6, maddə 398**) ilə maddə 17 çıxarılmışdır.
Əvvəlki redaksiyada deyilirdi:
~~M a d d ə 1 7 .**Meliorasiya və irriqasiya sahəsində fəaliyyətin lisenziyalaşdırılması**~~
~~Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan hallarda və qaydada fiziki və hüquqi şəxslər meliorasiya və irriqasiya sahəsində sahibkarlıq fəaliyyətini xüsusi icazə (lisenziya) əsasında həyata keçirirlər.~~

**[16]** 3 may 2019-cu il tarixli **1579-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyun 2019-cu il, 128 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6, maddə 988** ) ilə 18-ci maddənin ikinci hissəsi yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~Meliorasiya və irriqasiya sahəsində dövlət ekoloji ekspertizası ətraf mühitin mühafizəsi və ekoloji ekspertiza haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həyata keçirilir.~~

**[17]** 3 may 2019-cu il tarixli **1579-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyun 2019-cu il, 128 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6, maddə 988** ) ilə 18-ci maddəyə yeni məzmunda üçüncü - beşinci hissələr əlavə edilmişdir.

**[18]** 30 aprel 2004-cü il tarixli 644-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 6, maddə 398**) ilə maddə 19-da birinci hissədə **"habelə bələdiyyələrin**," sözlərindən sonra "**Birliklərin,**" sözü əlavə edilmişdir.

**[19]** 30 aprel 2004-cü il tarixli 644-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 6, maddə 398**) ilə maddə 20-də birinci hissədən "**bu sahədə lisenziyası olan**" sözləri, ikinci hissədən **"lisenziya və"** sözləri çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:
~~Meliorasiya və irriqasiya tədbirləri texniki-iqtisadi cəhətdən əsaslandırılmaqla, müvafiq tikinti, ekoloji, sanitariya və digər standartlara, normalara və qaydalara uyğun işlənib hazırlanmış layihələr əsasında ixtisaslaşdırılmış dövlət tikinti təşkilatları, habelə bu sahədə lisenziyası olan fiziki və hüquqi şəxslər tərəfindən aparılır.~~
~~Fəaliyyəti su obyektlərindən istifadə ilə bağlı olan meliorasiya və irriqasiya sistemlərinin layihələndirilməsi və tikintisi Azərbaycan Respublikasının su qanunvericiliyinə uyğun olaraq verilmiş sudan istifadəyə dair lisenziya və müqavilə əsasında həyata keçirilir.~~

**[20]** 30 aprel 2004-cü il tarixli 644-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 6, maddə 398**) ilə maddə 24-də sonuncu hissə çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~Birgə və fərdi mülkiyyətdə olan meliorasiya və irriqasiya sistemlərinin istismarı və mühafizəsinin təşkil edilməsi, onların idarə olunması, su ödənişlərinin toplanması, sudan istifadə zamanı meydana çıxan mübahisələrin və digər məsələlərin həll edilməsi ilə sudan istifadə edənlər birliyi yaradıla bilər. Həmin birliklərin fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.~~

[21] 13 fevral 2018-ci il tarixli **997-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 3 mart 2018-ci il,  49 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il,  2, maddə 165)** ilə 25-ci maddənin ikinci və üçüncü hissələrində “**pullu**” sözü “**ödənişli**” sözü ilə əvəz edilmişdir və dördüncü hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Sudan pullu istifadə qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən əsasnamə ilə müəyyən edilir.~~

[22] 30 aprel 2004-cü il tarixli 644-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il,  6, maddə 398**) ilə maddə 25-də beşinci, altıncı və yeddinci hissələr əlavə olunmuşdur.

[23] 30 aprel 2004-cü il tarixli 644-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il,  6, maddə 398**) ilə maddə 26-da ikinci hissənin ikinci abzasında "**irriqasiya sistemləri**" sözlərindən sonra **"(Birliklərin istifadəsinə verilən sistemlər istisna olmaqla)**" sözləri əlavə olunmuşdur.

[24] 30 aprel 2004-cü il tarixli 644-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il,  6, maddə 398**) ilə maddə 26-da ikinci hissəyə üçüncü abzas əlavə olunmuşdur.

[25] 1 oktyabr 2007-ci il tarixli 423-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il,  11, maddə 1048**) ilə 26-cı maddənin üçüncü hissəsində “**meliorasiya və irriqasiya üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən, təbiəti mühafizə üzrə müvafiq icra hakimiyyəti orqanı, suların istifadəsi və mühafizəsinin, meşə təsərrüfatının, torpaq ehtiyatları və yerquruluşunun idarə edilməsi üzrə müvafiq icra hakimiyyəti orqanları ilə və digər əlaqədar orqanlarla razılaşdırılmaqla**” sözləri “**müvafiq icra hakimiyyəti orqanı tərəfindən**” sözləri ilə əvəz edilmişdir.

-

[26] 9 mart 2004-cü il tarixli 603-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-ci il,  4, maddə 202) ilə 28-ci maddəsindən **"(respublika büdcəsinin, yerli büdcələrin)"** sözləri çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~Meliorasiya və  irriqasiya tədbirləri dövlət büdcəsinin (respublika büdcəsinin, yerli büdcələrin), habelə suvarılan və meliorasiya olunmuş (olunacaq) torpaqların mülkiyyətçiləri və ya istifadəçiləri olan bələdiyyələrin, fiziki və hüquqi şəxslərin vəsaiti, suvarma suyuna ödənişlər və qanunla qadağan olunmayan digər vəsaitlər hesabına maliyyələşdirilir.~~

-

30 aprel 2004-cü il tarixli 644-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il,  6, maddə 398**) ilə maddə 28-də **"bələdiyyələrin**," sözündən sonra **"Birliklərin,"** sözü əlavə olunmuşdur.

-

[27] 9 mart 2004-cü il tarixli 603-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-ci il,  4, maddə 202**) ilə 29-cu maddənin ikinci hissəsində "**respublika büdcəsinin, yerli büdcələrin**" sözləri "**dövlət büdcəsinin"** sözləri ilə əvəz edilmişdir.

[28] 30 aprel 2004-cü il tarixli 644-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il,  6, maddə 398**) ilə yeni VI-I fəsil əlavə olunmuşdur.

[29] 30 sentyabr 2015-ci il tarixli **1335-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 4 noyabr 2015-ci il,  242 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il,  10, maddə 1098**) ilə 32-ci maddəsində “**vəzifəli şəxslər və vətəndaşlar Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada intizam, maddi, mülki, inzibati və cinayət məsuliyyəti**” sözləri “**şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun məsuliyyət**” sözləri ilə əvəz edilmişdir.